# İLKİN BAZAR MƏSLƏHƏTLƏŞMƏSİ TƏDBİRİNDƏ İŞTİRAK ÜÇÜN DƏVƏT BİLDİRİŞİ

## Bakı Metropoliteninin Genişləndirilməsi Layihəsi (BMEP) — II Mərhələ Yaşıl Xəttin Genişləndirilməsi (AİİB) | Bənövşəyi Xəttin Genişləndirilməsi (AİB)

| | |
|---|---|
| **Sifarişçi:** | “Bakı Metropoliteni” Qapalı Səhmdar Cəmiyyəti (Bakı Metropoliteni) |
| **Maliyyələşdirən tərəfdaşlar:** | Asiya İnfrastruktur İnvestisiya Bankı (AİİB) — Yaşıl Xəttin Genişləndirilməsi<br>Asiya İnkişaf Bankı (AİB) — Bənövşəyi Xəttin Genişləndirilməsi |
| **Tədbirin tarixi:** | 30 aprel 2026-cı il, saat 10:00 (Bakı vaxtı, UTC+4) |
| **Format:** | Onlayn vebinar (Microsoft Teams) — qoşulma linki qeydiyyatdan sonra təqdim ediləcək |

## 1. Ümumi məlumat

“Bakı Metropoliteni” Qapalı Səhmdar Cəmiyyəti (Bakı Metropoliteni), Azərbaycan Respublikası Hökumətinin dəstəyi ilə Bakı Metropoliteninin Genişləndirilməsi Layihəsinin (BMEP) II mərhələsini həyata keçirir. Sözügedən layihə Qafqaz regionunda şəhər nəqliyyatı sahəsində həyata keçirilən ən iri və strateji əhəmiyyətli investisiya təşəbbüslərindən biri olmaqla, ümumi dəyəri təqribən 1,6 milyard ABŞ dolları təşkil edir və Asiya İnfrastruktur İnvestisiya Bankı (AİİB) və Asiya İnkişaf Bankı (AİB) tərəfindən paralel şəkildə maliyyələşdirilir.

II Mərhələ Bakı şəhərində iki yeni metro xəttinin tikintisini nəzərdə tutur və sıx şəhər mühitində dərin səviyyəli Tunel Qazma Maşını (TBM) vasitəsilə tunel qazma işlərinin aparılmasını ehtiva edir:

- **Yaşıl xəttin genişləndirilməsi (AİİB):** AIIB tərəfindən maliyyələşdiriləcək Yaşıl Xəttin Genişləndirilməsi (7,0 km, 4 yeraltı stansiya: Y-14–Y-17) — Bakı şəhərinin şimal-qərb və mərkəzi dəhlizləri üzrə metro şəbəkəsinin genişləndirilməsini nəzərdə tutur.
- **Bənövşəyi xəttin genişləndirilməsi (AİB):** ADB tərəfindən maliyyələşdiriləcək Bənövşəyi Xəttin Genişləndirilməsi (8,2 km, 5 yeraltı stansiya: B-5–B-8) — şərq–qərb dəhlizi boyunca metro şəbəkəsinin genişləndirilməsini və əsas kommersiya və yaşayış rayonlarının birləşdirilməsini nəzərdə tutur.

Potensial iştirakçıların diqqətinə çatdırılır ki, Yaşıl Xətt üzrə aşağıdakı əvvəlki vəziyyət mövcuddur: əvvəlki tikinti cəhdi çərçivəsində istifadə olunmuş iki ədəd TBM hazırda yeraltında yerləşir. Bundan əlavə, Yaşıl Xətt üzrə iki stansiyanın qazıntı və tikinti işlərinə başlanılmış və 2014-cü ildə dayandırılmışdır ki, nəticədə həmin iki stansiya qismən tikilmiş vəziyyətdə qalmışdır. Eyni zamanda, Yaşıl Xətt üzrə tunel qazma işləri potensial olaraq çirklənmiş torpaq və yeraltı sularla təmasda ola bilər. Həmçinin qeyd olunmalıdır ki, iki metro xəttinin tikintisi siqnalizasiya və telekommunikasiya sistemlərini əhatə etməyəcəkdir; bu sistemlərin ayrıca layihə çərçivəsində həyata keçirilməsi planlaşdırılır.

**Sahəyə çıxış, torpaq istifadəsi hüquqları və mühəndis-kommunikasiya xətləri:** Bakı Metropoliteni ilkin bazar araşdırmasının hazırlığı ilə paralel olaraq sahələrin təmizlənməsi, torpaq istifadəsi hüquqlarının əldə edilməsi və mühəndis-kommunikasiya xətlərinin köçürülməsi üzrə planlaşdırma işlərini həyata keçirir. Bazar iştirakçıları tender mərhələsində etibarlı təkliflərin hazırlanması üçün sahəyə çıxış, tikinti meydançalarının təşkili, mühəndis-kommunikasiya xətləri ilə qarşılıqlı əlaqə və yerüstü sahələrin təmizlənməsi üzrə hansı məlumatlara ehtiyac duyduqları barədə rəy bildirməyə dəvət olunurlar. Bu məsələ vebinar zamanı sual-cavab sessiyasında müzakirə olunacaqdır.

Potensial iştirakçılar həmçinin nəzərə almalıdırlar ki, Yaşıl Xəttin marşrutu (xüsusilə Y-15 stansiyası) tarixən sənayeləşmiş ərazilərdən keçir və burada neftlə çirklənmiş torpaq və yeraltı sulara rast gəlinə bilər. Bundan əlavə, sıx şəhər mühiti nəzərə alınmaqla, qonşu binalar və mühəndis-kommunikasiya xətləri üçün torpaq çökməsi riski əsas texniki amillərdən biridir. Tikinti metodologiyası bu riskləri nəzərə almalıdır və buna uyğun olaraq TBM konfiqurasiyalarının uyğunlaşdırılması, çirklənmənin monitorinqi ilə təchiz olunmuş stansiya drenaj sistemləri, izolyasiya klapanları və fövqəladə dayandırma protokolları, habelə çirklənmiş materialların müvafiq emalı və təhlükəsiz utilizasiyası kimi tədbirləri ehtiva etməlidir.

## 2. İlkin bazar araşdırmasının məqsədi

Bu İlkin bazar araşdırması açıq, strukturlaşdırılmış və hüquqi öhdəlik yaratmayan bazar məsləhətləşməsi xarakteri daşıyır. Bu, rəsmi satınalma prosesi deyil və iştirak nə ilkin ixtisaslaşdırma hesab olunur, nə də sonrakı qiymətləndirmə nəticələrinə hər hansı təsir göstərir.

**İştirak etməklə əldə edəcəyiniz imkanlar:**

- Rəsmi tenderin elan edilməsindən əvvəl layihənin əhatə dairəsi, miqyası və satınalma strategiyası barədə erkən və ətraflı məlumat əldə etmək.
- Satınalma yanaşmasının formalaşdırılmasına birbaşa töhfə vermək imkanı — müqavilələrin paketləşdirilməsi, FIDIC ("Beynəlxalq Məsləhətçi Mühəndislər Federasiyası" - *Fédération Internationale Des Ingénieurs-Conseils*) müqavilə forması, qiymətləndirmə meyarları, risklərin bölgüsü və ixtisas tələbləri üzrə rəy və təklifləriniz yekun tender sənədlərinin hazırlanmasına birbaşa təsir göstərəcəkdir.
- Layihəyə xas riskləri qaldırmaq imkanı — o cümlədən geotexniki şərait, Yaşıl Xətt üzrə əvvəlki TBM vəziyyəti, regional logistika və təchizat zənciri məhdudiyyətləri — və praktiki risk azaldılması tədbirləri üzrə tövsiyələr təqdim etmək.
- Təklif hazırlığı üçün resurs ayırmazdan əvvəl şirkətinizin təcrübə və imkanlarını təqdim etmək və layihənin miqyasını qiymətləndirmək imkanı.
- Asiya İnfrastruktur İnvestisiya Bankı (AIIB) və Asiya İnkişaf Bankı (ADB) satınalma mütəxəssisləri, eləcə də Bakı Metropoliteninin Layihələrin İdarə Olunması Qrupu (PIU) ilə bir sessiya çərçivəsində birbaşa ünsiyyət qurmaq və suallar vermək imkanı.
- Tender mərhələsindən əvvəl potensial birgə müəssisə tərəfdaşlarını, ixtisaslaşmış subpodratçıları və ya təchizat zənciri üzrə əməkdaşları müəyyən etmək imkanı.

## 3. Layihənin əhatə dairəsi və əsas məlumatlar

| Xüsusiyyət | Yaşıl Xəttin Genişləndirilməsi | Bənövşəyi Xəttin Genişləndirilməsi |
|---|---|---|
| **Maliyyələşdirən qurum** | AIIB | ADB |
| **Marşrutun uzunluğu** | 7,0 km (tamamilə yeraltı) | 8,2 km (tamamilə yeraltı) |
| **Yeni stansiyalar** | 4 stansiya (Y-14, Y-15, Y-16, Y-17) | 5 stansiya (B-5, B-6A, B-6B, B-7, B-8) |

| Xüsusiyyət | Yaşıl Xəttin Genişləndirilməsi | Bənövşəyi Xəttin Genişləndirilməsi |
|---|---|---|
| **Layihənin əhatə dairəsi** | Mülki tikinti işləri (TBM tunelləri və yeraltı stansiyalar), dəmir yolu sistemləri və elektromexaniki işlər, habelə əlaqədar məsləhət xidmətləri. Yekun paketləşdirmə ilkin bazar araşdırması üzrə rəy və təkliflər nəzərə alınmaqla müəyyən ediləcəkdir. | Mülki tikinti işləri (TBM tunelləri və yeraltı stansiyalar), dəmir yolu sistemləri və elektromexaniki işlər, habelə əlaqədar məsləhət xidmətləri. Yekun paketləşdirmə ilkin bazar araşdırması üzrə rəy və təkliflər nəzərə alınmaqla müəyyən ediləcəkdir. |
| **Əsas dəhliz** | Şimal-qərb – Mərkəzi | Şərq – Qərb dəhlizi |
| **Təxmini müqavilə dəyəri**[1] | ≈ 700 milyon ABŞ dolları | ≈ USD 900 milyon ABŞ dolları |
| **Tikinti müddəti** | 42 ay | 44 ay |
| **Tikinti metodu**[2] | Tunel qazma maşını (Torpaq təzyiqi balansı / Sulu məhlullu / Qarışıq tipli qalxan) | Tunel qazma maşını (Torpaq təzyiqi balansı / Sulu məhlullu / Qarışıq tipli qalxan) |
| **Uyğunluq** | Universal uyğunluq (bütün ölkələr) | ADB üzv ölkələri |
| **Satınalma çərçivəsi** | AIIB Satınalma Siyasəti (2024) və Satınalma Təlimatları üzrə Direktiv (2024) | ADB Satınalma Siyasəti (2017) və ADB borcalanları üçün Satınalma Direktivləri (2026) |

1. Göstərilən təxmini müqavilə dəyərləri şərti xarakter daşıyır və hər bir xətt üzrə mülki tikinti işləri və dəmir yolu sistemlərinə ümumi investisiyanı əks etdirir. Dəyərlər ətraflı layihələndirmənin tamamlanmasından və İlkin bazar araşdırması prosesinin yekunlaşmasından sonra yenidən nəzərdən keçirilə bilər.

## 4. İlkin bazar araşdırması üzrə şərti proqram

Vebinar aşağıdakı struktur üzrə keçiriləcəkdir:

| Vaxt | Sessiya |
|---|---|
| 10:00 – 10:15 | Açılış və təqdimat — Bakı Metropoliteni / PIU |
| 10:15 – 10:30 | Asiya İnfrastruktur İnvestisiya Bankı (AIIB) və Asiya İnkişaf Bankı (ADB) satınalma çərçivələri, uyğunluq tələbləri və layihənin maliyyələşdirilməsi üzrə ümumi baxış — AIIB və ADB nümayəndələri |
| 10:30 – 11:15 | Layihə üzrə ümumi təqdimat: əhatə dairəsi, marşrut, stansiyalar, geotexniki şərait, əvvəlki TBM vəziyyəti (Yaşıl Xətt), təklif olunan paketləşdirmə strategiyası və qiymətləndirmə yanaşması — Bakı Metropoliteninin texniki komandası |
| 11:15 – 11:35 | Canlı sorğu sessiyası — iştirakçılar Mentimeter platforması vasitəsilə real vaxt rejimində cavab verirlər (QR kod vebinar zamanı təqdim ediləcək) |
| 11:35 – 12:15 | Açıq sual-cavab sessiyası — iştirakçılar AIIB, ADB və Bakı Metropoliteninin nümayəndələrinə birbaşa suallar ünvanlayırlar |
| 12:15 – 12:30 | Yekun çıxışlar, növbəti addımlar və vebinardan sonrakı sorğunun doldurulması üzrə təlimatlar |

## 5. Qeydiyyat prosesi və sorğu üzrə vaxt cədvəli

İlkin bazar araşdırması prosesi üç mərhələdən ibarətdir:

| Mərhələ | Vaxt | Tələb olunan fəaliyyət |
|---|---|---|
| **Mərhələ 1** | 23 aprel 2026-cı il, saat 18:00-dək (Bakı vaxtı, UTC+4) | Vebinar üçün qeydiyyatdan keçmək və əvvəlcədən qeydiyyat formasını (sorğunun I bölməsi) doldurmaq — şirkət profili və əlaqə məlumatlarını təqdim edir.<br><br>**Qeydiyyat üçün keçid:** https://forms.gle/11vLAzWvv2MvMk7E6 |
| **Mərhələ 2** | 30 aprel 2026-cı il, vebinar zamanı | Vebinar zamanı Mentimeter platformasında canlı sorğuda iştirak etmək (II bölmə). QR kod və birbaşa keçid ekranda təqdim ediləcəkdir. Cavablandırma təxminən 10–15 dəqiqə vaxt aparır. |
| **Mərhələ 3** | 03 may 2026-cı ilədək (şərti) | Vebinardan sonra qeydiyyatdan keçmiş iştirakçılara birbaşa göndəriləcək sorğunu (III bölmə) doldurmaq və təqdim etmək. Bu son tarix şərti xarakter daşıyır — şirkətlərə tədbirdən sonra daha dolğun rəy təqdim etmək üçün cavab vermələri tövsiyə olunur. |

Vebinarda iştirak edə bilməyən şirkətlər də qeydiyyatdan keçməyə və vebinar yazısı ilə birlikdə təqdim olunacaq sonrakı sorğunu doldurmağa dəvət olunurlar.

## 6. Məxfilik və məlumatların qorunması

İştirakçılar tərəfindən təqdim edilən bütün məlumatlar ciddi məxfilik şəraitində saxlanılacaqdır. Cavablar yalnız satınalma strategiyalarının təkmilləşdirilməsi məqsədilə Bakı Metropoliteninin Layihələrin İdarə Olunması Qrupu (PIU), AIIB və ADB tərəfindən daxili qaydada nəzərdən keçiriləcəkdir. Təqdim olunan rəy və təkliflər konkret şirkətlərlə əlaqələndirilməyəcək və digər bazar iştirakçıları və ya rəqiblərlə paylaşılmayacaqdır.

İlkin bazar araşdırması tədbirində iştirak könüllü xarakter daşıyır və hər hansı sonrakı satınalma prosesi üzrə ilkin ixtisaslaşdırma hesab edilmir. İlkin bazar araşdırmasında iştirak edən şirkətlər sonradan elan olunacaq tenderlərdə iştirak hüququndan məhrum edilmir, eyni zamanda iştirak etməyən şirkətlərin də gələcək uyğunluğuna heç bir təsir göstərilmir.

## 7. Vacib qeyd

Cari ilkin bazar araşdırması tədbiri yalnız bazar məsləhətləşməsi xarakteri daşıyır. O, BMEP II mərhələsi üzrə satınalma planlaşdırılması prosesinin tərkib hissəsidir və tender sənədlərinin yekunlaşdırılmasından əvvəl keçirilir. Bu tədbir ilkin ixtisaslaşdırma, ilkin seçim və ya təkliflərin təqdim olunması prosesi hesab edilmir.

Vebinardan əvvəl təqdim olunan və ya vebinar zamanı səsləndirilən bütün suallar anonimləşdirilmiş sual-cavab xülasəsi şəklində toplanacaq və tədbirdən sonra bütün qeydiyyatdan keçmiş iştirakçılarla paylaşılacaqdır.

**Əlaqə məlumatları**

Bu tədbirlə bağlı əlavə məlumat üçün aşağıdakı əlaqə vasitəsindən istifadə edə bilərsiniz:

Emil Vəliyev

Mikayıl Rəfili küçəsi 16, Bakı, Azərbaycan

E-poçt: bmep-group@metro.gov.az